1992
2022

# YENİ AZƏRBAYCAN PARTİYASI

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*

30

> Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır.
>
> ***Heydər ƏLİYEV, Azərbaycan xalqının Ümummilli Lideri***



# Uğurlu inkişafın 30 ili

*Cəmiyyətimizin lokomotivi, regionun ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının təsis edilməsindən 30 il keçir.*

*Bu dövr Azərbaycan dövlətinin demokratik, hüquqi və dünyəvi dövlət kimi formalaşması, müstəqilliyin möhkəmləndirilməsi, dünya miqyasında sayılan-seçilən, hörmət bəslənilən, hesablaşılan məmləkətə çevrilməsi, bütün sahələri əhatə edən islahatlara, davamlı inkişafa, sürətli tərəqqiyə, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə nail olunması, vətəndaş həmrəyliyinin, milli birliyin bərqərar edilməsi, işğala son qoyularaq ərazi bütövlüyünün təmin edilməsi, işğaldan azad edilmiş regionların dirçəldilməsi və nəhayət, Prezident-Xalq-Ordu birliyinin təmin olunması kimi vacib məsələlərlə səciyyələnir.*

*Ötən 30 illik çətin, lakin şərəfli yolda ölkəmizdə qazanılan nailiyyətlərin müəllifləri Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevdir. Uğurların əsas mənbəyi, ilhamverici, hərəkətverici, təkanverici qüvvəsi isə məhz Heydər Əliyevin cəmiyyətimizin bütün sahələrini əhatə edən strategiyası, ideyalarıdır.*

*Həqiqətdir ki, davamlı inkişafa nail olunmasında sıralarında cəmiyyətimizin 700 mindən artıq üzvünü birləşdirən, 29 il hakim partiya məsuliyyətini şərəflə daşıyan Yeni Azərbaycan Partiyasının da rolu danılmazdır.*

## Tarixi zərurətdən yaranan partiya

1990-cı illərin əvvəllərində yenicə müstəqillik əldə etmiş Azərbaycandakı təlatümlü, qorxunc, təhlükəli, bir sözlə, xaotik vəziyyəti yaşlı və orta nəslin nümayəndələri yaxşı xatırlayırlar. İndi o günlərdən söhbət düşəndə hamı bir ağızdan "getsin, bir daha gəlməsin" deyir. Çünki xarici və daxili düşmənlərin məqsədyönlü dağıdıcı fəaliyyəti nəticəsində parçalanma, müstəqilliyi itirmə təhlükəsi, "olum-ölüm" dilemması ilə üzləşən gənc dövlətimiz vəziyyətdən çıxış yollarını tapmaqda acizlik, təcrübəsizlik, səriştəsizlik nümayiş etdirirdi. Bu da ölkəmizin müstəqilliyini istəməyən mənfur qüvvələrə rəvac verir, onları terroru, təcavüzü daha da dərinləşdirməyə, Azərbaycanı xəritədən silib atmağa ruhlandırırdı.

Bir tərəfdən ermənilər tərəfindən tarixi ata-baba yurdlarımıza silahlı basqınların edilməsi, torpaqlarımızın işğalı, milyona yaxın soydaşımızın daimi yaşayış yerindən zorla qovulması, digər tərəfdən iqtisadi tənəzzül, ağır sosial vəziyyət, zəif ordu, naşı dövlət rəhbərləri ölkəmizi məhvolma həddinə gətirib çıxarmışdı. Güclü rəhbərə, güclü liderə ciddi ehtiyac yaranmışdı...

1993-cü ilin iyun ayını - o ağrılı-acılı, təlatümlü günləri orta və yaşlı nəsil yaxşı xatırlayır. AXC-Müsavat cütlüyünün səriştəsiz iqtidarı ölkədə qardaş qırğınına, özbaşınalığa, hərcmərcliyə səbəb olmuşdu, hakimiyyətlə xalq arasında dərin bir uçurum yaranmışdı. Başını itirən bəylər isə öz haylarında idilər. Nə xalq yada düşürdü, nə də Qarabağ.

Belə bir dövrdə xalq nicat yolunu 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik zamanı yaxından tanıdığı, bacarığına, fitri istedadına yaxşı bələd olduğu Heydər Əliyevin yenidən hakimiyyətə gətirilməsində gördü. Başqa yol da yox idi. "Ümid sənədir, Heydər baba", "Heydər baba, bizi bəladan qurtar" çağırışları təsadüf deyildi, dövrün tələbi idi.

Belə bir mürəkkəb ictimai-siyasi şəraitdə xalqı siyasi lider ətrafında sıx birləşdirməklə mövcud vəziyyətdən xilas üçün yeni siyasi qüvvəyə ehtiyac vardı. Buna görə də Yeni Azərbaycan Partiyasının yaradılması zərurəti meydana çıxdı. Bax, bu səbəbdən Azərbaycanın 91 ziyalısı 1992-ci il oktyabrın 16-da o zaman Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik edən Heydər Əliyevə müraciət ünvanladı. Müraciət təkcə bir qrup ziyalının deyil, bütövlükdə xalqın istəyi, arzusu idi. Müraciətdə yalnız bir xahiş öz əksini tapmışdı - yeni yaradılacaq siyasi partiyaya rəhbərliyi üzərinə götürmək.

Qəribə bir paradoks yaranmışdı: ziyalıların - xalqın müraciətinə 1992-ci il oktyabrın 24-də müsbət cavab verən Heydər Əliyevin Bakıya gəlməsinə ovaxtkı iqtidar hər vəchlə maneələr yaradırdı. Bu səbəbdən YAP-ın təsis konfransı 550 nəfərin iştirakı ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirildi və Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Bütün bunlar onu deməyə əsas verir ki, YAP tarixi zərurətdən, dövrün tələbindən yaranan partiyadır.

Ancaq bir məsələni də yaddan çıxarmaq olmaz. Ulu Öndər bu partiyaya rəhbərliyi öz üzərinə götürərkən qətiyyən düşünmürdü ki, sonra xalq onu yenidən özünə rəhbər seçəcək. Onun məqsədi partiyanın ona verdiyi səlahiyyətdən istifadə edərək dövləti, xalqı yaranmış siyasi, iqtisadi böhrandan xilas etmək idi. Buna da nail olaraq xalqın xilaskarı titulunu qazandı.

## Məqsədi xalqa xidmət olan partiya

Partiyanın proqramı onun fəaliyyətinin güzgüsüdür. 1999-cu il dekabrın 21-də keçirilmiş birinci qurultayda partiyanın təsis konfransında qəbul etdiyi proqram əlavə və dəyişikliklər edilməklə təsdiq olundu. Proqramda partiyanın qarşısında duran tarixi vəzifələr öz əksini tapdı. "Yeni Azərbaycan naminə" şüarını əhatə edən bu strategiyaya aşağıdakı hədəflər daxil idi:

- yeni tarixi inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Respublikasının bütün vətəndaşları qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi;

- demokratik, hüquqi, dünyəvi dövlətin formalaşdırılması;

- respublikanın ərazi bütövlüyünün bərpası, milli maraqlarımıza uyğun olaraq Dağlıq Qarabağ probleminin həlli;

- ölkə əhalisinin dinc və firavan həyat şəraitində yaşamasının təmin edilməsi.

İndi gəlin Heydər Əliyevin 1992-ci il oktyabrın 24-də ziyalılara cavabına nəzər salaq. Məktubda mövcud vəziyyətdən çıxış yolları kimi qarşıya aşağıdakı 5 vəzifə qoyulurdu:

- Azərbaycanın müharibə vəziyyətindən çıxması və Qarabağ probleminin tezliklə həlli;

- Azərbaycanda sosial-iqtisadi böhranın aradan qaldırılması, xalqın güzəranının yaxşılaşdırılması;

- düzgün kadr siyasətinin həyata keçirilməsi;

- müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsi;

- Azərbaycanın parçalanmasına yönəldilmiş meyillərin qarşısının qətiyyətlə alınması.

Təxminən partiyanın proqramında əks olunmuş vəzifələrlə eynilik təşkil edən bu tarixi məqsədlər Heydər Əliyevin müdrikliyinin, dahiliyinin, dünyəvi siyasətçi olduğunun, həyatının əsas məramının xalqa xidmət təşkil etdiyinin bariz sübutudur. Keçən, tarixə qovuşan illər bunu bir daha təsdiq etdi.

Məhz Heydər Əliyev şəxsiyyətinə olan inam, etibar Yeni Azərbaycan Partiyasının sıralarının qısa müddətdə artmasına, bütün regionlarda struktur sahələrinin yaradılmasına və nəhayət, heç bir il keçməmiş iqtidar partiyasına çevrilməsinə səbəb oldu.

Ötən 30 ildə partiyanın çoxşaxəli fəaliyyəti şanlı səhifələrlə zəngindir. Bu fəaliyyətin əsas istiqamətini xalqa, Vətənə, dövlətə xidmət təşkil edir. 1993-cü ildən başlayaraq bütün seçkilərdə YAP-a qələbə qazandıran da xalqın partiyamızın liderlərinə sonsuz inamı, etbarıdır.

## Heydər Əliyev ideyaları və reallıqlar

Son 18 ildə Azərbaycanın keçdiyi yola nəzər salanda adamı qürur hissi bürüyür. Qısa zaman kəsiyində əldə olunan və bütün sahələri - siyasi, iqtisadi, sosial, ordu quruculuğu və digərlərini əhatə edən uğurlar sonsuz sevincə, iftixara səbəb olur. Faktlara nəzər salaq:

- Ölkəmizin iqtisadiyyatı 3 dəfədən çox artıb və bu gün Cənubi Qafqazın iqtisadiyyatının böyük hissəsi Azərbaycanın payına düşür. Qlobal rəqabətin, hərc-mərcliyin artdığı bir dövrdə Azərbaycan davamlı və dayanıqlı iqtisadi inkişaf yolu ilə inamla irəliləyir. İqtisadiyyatın müxtəlif sahələrini əhatə edən islahatların həyata keçirilməsi nəticəsində əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsulun həcmi ildən-ilə artır. Reallıq ondan ibarətdir ki, bu gün regionda Azərbaycanın iştirakı olmadan heç bir layihə reallaşdırılmır. Azərbaycan iqtisadi və siyasi baxımdan regionun ən müstəqil ölkəsidir.

2021-ci il martın 5-də YAP-ın VII qurultayında partiyamızın Sədri cənab İlham Əliyev geniş nitqində bu məsələlərlə bağlı qeyd etmişdi: *"İqtisadi müstəqillik həm hazırlıq baxımından, həm siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərt idi. Buna da nail olduq. Bu gün istənilən meyar üzrə, istənilən parametr üzrə heç kimdən asılı deyilik, iqtisadi sahədə ən qabaqcıl yerlərdəyik".*

Azərbaycan tərəfindən həyata keçirilən genişmiqyaslı nəqliyyat infrastrukturu layihələri də ölkəmizi ən mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevirib.

İqtisadi imkanlarımız, davamlı inkişaf ordunun müasirləşdirilməsində, Vətən müharibəsində Zəfərə nail olunmasında, həmçinin 2020-ci ildən başlayaraq dünyanı çalxalayan pandemiya ilə mübarizədə həlledici rol oynadı və bu gün də işğaldan azad olunmuş torpaqlarımızda bərpa-quruculuq işlərinin uğurla və sürətlə həyata keçirilməsində mühüm amildir.

- Azərbaycanda güclü birlik yaranmışdır: xalq-iqtidar-ordu birliyi. Bu birlik eyni zamanda müxtəlif millətlərin və dinlərin birliyidir, tolerantlığın əyani ifadəsi, bariz nümunəsidir. Azərbaycanda bu gün hər bir xalqın nümayəndəsi rahat yaşayır, öz dilində danışır, öz dininə sitayiş edir və hər kəs fikirlərini sərbəst şəkildə ifadə edə bilir. Bu, Azərbaycanın tarixi ənənələrə söykənən ən böyük uğurudur, qazancıdır. Təsadüfi deyildir ki, partiyanın yeni proqramının əsas devizi də belədir: *"Biz birlikdə güclüyük!"* Bu birliyi, həmrəyliyi qoruyub saxlamaq və daha da möhkəmləndirmək bizim ən başlıca vəzifəmiz olmalıdır.

- Son illərdə Azərbaycanın beynəlxalq müstəvidə nüfuzu xeyli artmışdır. İndi ən böyük dövlətlər, ən nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanla hesablaşır, ona hörmətlə yanaşır, dövlət başçımızın apardığı dünyəvi siyasət yüksək qiymətləndirilir. Bu gün Azərbaycan dərin hörmətə malik, öz milli dəyərləri ilə seçilən, qurub-yaradan, güclü, müstəqil siyasət yeridən, sülhsevər bir ölkə kimi qəbul olunur.

Azərbaycan 2019-cu ildən bəri üzv ölkələrin yekdil qərarı əsasında dünyada BMT-dən sonra ən böyük beynəlxalq struktur olan Qoşulmama Hərəkatına sədrlik edir. Sədrlik yenə də yekdil qərar əsasında daha bir il - 2023-cü ilin sonuna qədər uzadılıb. Azərbaycan BMT Təhlükəsizlik Şurasına da qeyri-daimi üzv kimi rəhbərlik edib.

Prezident İlham Əliyev Ali Baş Komandan və sərkərdə kimi 44 günlük müharibədə dünya hərb tarixində görünməmiş bir qələbəyə nail oldu. Dünyanın ən təcrübəli hərbi ekspertləri hələ də araşdıra bilmirlər ki, Qələbəmiz hansı hərbi-taktiki gedişlər hesabına baş verib.

Son 100 ildə Türkiyə-Azərbaycan münasibətləri son 18 ildəki qədər olmayıb. Yəni Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti cənab İlham Əliyevin prezidentlik fəaliyyətləri dövründə qardaşlıq münasibətləri də ən yüksək zirvəyə qalxıb. Nəticə olaraq Şuşa Bəyannaməsi iki ölkə arasında hərbi əməkdaşlığa yeni səhifə açdı. Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan bir ildə iki dəfə ölkəmizdə səfərdə olarkən iki hava limanının açılışında şəxsən iştirak etdi.

İkinci Qarabağ müharibəsini cənab İlham Əliyev təkbaşına idarə etdi, bir çox dünya ölkələrinin təzyiqlərinə sinə gərdi. Dünya bir tərəfdə durdu, o, bir tərəfdə. Ona əlavə güc verən Türkiyənin siyasi və qardaşlıq dəstəyi oldu.

- Azərbaycan xalqı ərazi bütövlüyü uğrunda apardığı 44 günlük Vətən müharibəsindən tam qalib çıxdı. İşğal olunmuş torpaqlarımızın Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni faşizminin tapdağından azad olunması milli qürurumuzun dirçəlməsi, xalqımızın başının ucaldılması ilə nəticələndi. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı bəxş etsin. İnanıram ki, onların qanı, canı bahasına, əsgər və zabitlərimizin qəhrəmanlığı, xalqımızın dəstəyi ilə əldə etdiyimiz bu möhtəşəm Qələbə Azərbaycanı daha böyük zəfərlərə aparacaqdır.

- Uğurlu neft strategiyası, qeyri-neft sektorunun inkişafı, işsizlik və yoxsulluğun səviyyəsinin aşağı salınması istiqamətində görülən işlər əhalinin sosial rifahını yüksəldir. Sözün həqiqi mənasında, sosial yönümlü olan dövlət büdcəsində əhalinin sosial müdafiəsi xərcləri ilbəil artır.

Xüsusi qeyd etmək lazımdır ki, son 18 ildə Azərbaycanın bütövlükdə inkişafı, əldə etdiyimiz uğurlar Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin Ulu Öndərin siyasi xəttini, strategiyasını qətiyyətlə davam etdirməsi, yorulmaz, fədakar fəaliyyəti, onun cəsarəti, eyni zamanda uzaqgörənliyi və dünyəvi siyasəti sayəsində mümkün olmuşdur. Bu işlərin sistemli, planlı, düşünülmüş şəkildə həyata keçirilməsində cənab Prezidentin sədaqətli, etibarlı silahdaşı olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da əməyi danılmazdır.

## Yeni dövr, yeni çağırışlar

İndi biz tamamilə yeni dövrə qədəm qoymuşuq. Bizim yeni vəzifələrimiz, görəcəyimiz işlər Yeni Azərbaycan Partiyasının VII Qurultayının qərarına uyğun olaraq hazırlanmış və partiyanın idarə heyətinin 2021-ci il 29 dekabr tarixli iclasında təsdiq edilmiş proqramda öz konkret əksini tapmışdır. Bunlar genişmiqyaslı olmaqla bərabər, aşağıdakı istiqamətləri əhatə edir:

1. *Heydər Əliyev irsinin təbliği və təşviqi*
2. *Güclü iqtisadiyyat və davamlı inkişaf*
3. *İnklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı*
4. *Şəffaflığın artırılması*
5. *Vətəndaş cəmiyyətinin inkişafı*
6. *Azərbaycan dili və dünya azərbaycanlılarının həmrəyliyi*
7. *Mədəni irsin və milli-mənəvi dəyərlərin qorunması*
8. *Vətəndaş həmrəyliyinin təminatı*
9. *Milli maraqlar və xarici siyasət*
10. *Ordu quruculuğu*
11. *İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdış.*

Göründüyü kimi, görüləcək işlərin əhatə dairəsi kifayət qədər genişdir. Bizi qarşıda daha mühüm işlər gözləyir. Buna görə də hər bir partiya üzvü, hər kəs öz sahəsində üzərinə düşən vəzifəni məsuliyyətlə icra etməlidir. Biz təlatümlərlə, qarşıdurmalarla, böyük güclərin çəkişməsi, əzələ nümayişi ilə müşayiət olunan yeni dövrün yeni çağırışlarına həmişə hazır olmalıyıq.

Üzvü olduğum Veteranlar Şurası da partiyanın proqramında müəyyən edilmiş hədəflərə uyğun olaraq, Heydər Əliyev irsinin gənclər arasında təbliğində, milli-mənəvi dəyərlərin qorunmasında yaxından iştirak edir. Bu məqsədlə yerlərdə gənc fəallarla tez-tez müxtəlif mövzuları əhatə edən tədbirlər, görüşlər keçirilir. Veteranlar Ulu Öndərlə canlı ünsiyyətləri, şahidi olduqları maraqlı hadisələri gənclərlə bölüşərək azərbaycançılıq, vətənpərvərlik ideyalarını yaymağa çalışırlar.

## Gələcəyə baxış

Qətiyyətlə deyə bilərik ki, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yol müstəqil dövlətimizin və xalqımızın ümidinin, istək və arzularının gerçəkləşdiyi, reallığa çevrildiyi yoldur, tərəqqi, yüksəliş, davamlı inkişaf yoludur.

Azərbaycanın etibarlı gələcəyi naminə bizim hamımızın bir yolu, bir məqsədi, bir amalı olmalıdır. Bu yol Heydər Əliyev yoludur. Bu yol Müzəffər Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyevin böyük Zəfər yoludur. Məqsədimiz isə güclü dövlətə, güclü orduya, güclü xalqa sahib olmaqdır. Cənab İlham Əliyevin rəhbərliyi altında biz bu gün də, sabah da öz gücümüzə arxalanmalıyıq. Bunun üçün də güclü olmalıyıq, necə ki cənab İlham Əliyev haqlı olaraq deyib: **"Bizdən çox bizi istəyən heç vaxt olmayıb və olmayacaq".**

Ulu Öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyası barədə müdrikcəsinə dediyi sözlər hamıya bəllidir: *"Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır".* Dahiyanə, uzaqgörənliklə deyilmiş ifadədir. Dövr, zaman keçdikcə biz bu gerçəkliyin təkrar-təkrar canlı şahidi oluruq.

Mən YAP-ın 2001-c il noyabrın 21-də keçirilmiş ikinci qurultayında çıxışımda səsləndirdiyim bir fikri bir daha bəyan etmək istəyirəm. O zaman demişdim: *"Necə ki Heydər Əliyev Azərbaycanın tarixində və onun xalqının qəlbində daim yaşayacaq, YAP da daimi və əbədidir. Bütün Qarabağ əhli, bütün Azərbaycan xalqı deyir ki, Şuşasız Qarabağ olmaz. Biz isə deyirik: Əliyevlərsiz Azərbaycan olmaz!"*

Eşq olsun Azərbaycana!

Eşq olsun Azərbaycan xalqına!

Eşq olsun Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri möhtərəm İlham Əliyevə!

***Əli HƏSƏNOV, YAP Veteranlar Şurasının üzvü***